# İşsizlikdən sığorta fondunun 2023-cü il büdcəsi haqqında

## Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 95-ci maddəsinin I hissəsinin 5-ci bəndini rəhbər tutaraq **qərara alır:**

**Maddə 1. Büdcənin ümumi göstəriciləri**

İşsizlikdən sığorta fondunun 2023-cü il büdcəsinin gəlirləri 212 668 344,50 manat, xərcləri 212 668 344,50 manat məbləğində təsdiq edilir.

**Maddə 2. Gəlirlər**

Müəyyən edilsin ki, 2023-cü ildə işsizlikdən sığorta fondunun gəlirləri aşağıdakı daxilolmalar hesabına formalaşır:

| | Gəlirlərin mənbələri | Məbləğ (manatla) |
|---|---|---|
| 2.1. | İşsizlikdən sığorta üzrə sığorta haqları, cəmi o cümlədən: | 159 576 150,0 |
| 2.1.1. | büdcədən maliyyələşən təşkilatlar üzrə | 22434 025,0 |
| 2.1.2. | büdcədən maliyyələşən təşkilatlarda işləyənlər üzrə | 22434 025,0 |
| 2.1.3. | qeyri-büdcə sektoru üzrə | 114 708 100,0 |
| 2.2. | Sair gəlirlər | 60 000,0 |
| 2.3. | 2022-ci ilin sonuna işsizlikdən sığorta fondunun istifadə olunmamış vəsaiti | 53032 194,5 |

**Maddə 3. Xərclər**

Müəyyən edilsin ki, işsizlikdən sığorta fondunun 2023-cü il büdcəsinin xərcləri aşağıdakı istiqamətlərdə həyata keçirilir:

| | Xərclərin istiqamətləri | Məbləğ (manatla) |
|---|---|---|
| 3.1. | İşsizliyə görə sığorta ödənişləri | 11 000 000,0 |
| 3.2. | Peşə hazırlığı və əlavə təhsilin təşkili | 22 000 000,0 |
| 3.3. | Peşə yönümünə dair məsləhət xidmətlərinin göstərilməsi | 2 000 000,0 |
| 3.4. | Əmək yarmarkalarının, əmək birjalarının təşkili | 500 000,0 |
| 3.5. | Haqqı ödənilən ictimai işlərin təşkili | 3 500 000,0 |
| 3.6. | Özünüməşğulluq tədbirlərinin təşkili | 87 521 146,75 |
| 3.7. | Sosial iş yerlərində işçilərin əməkhaqqının bir hissəsinin maliyyələşdirilməsi | 2 000 000,0 |
| 3.8. | Peşə standartlarının hazırlanması | 1 000 000,0 |
| 3.9. | Müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) aparatının və onun idarə, filial və nümayəndəliklərinin, habelə tabeliyindəki digər qurumların, müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) saxlanılması xərcləri | 44 647 197,75 |
| 3.10. | Müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) əhaliyə sosial sahədə xidmətlərin təşkili üzrə fəaliyyətinin müştərək maliyyələşdirilməsi xərcləri | 35 000 000,0 |
| 3.11. | Sosial müdafiəyə xüsusi ehtiyacı olan və işə düzəlməkdə çətinlik çəkən şəxslərin məşğulluğunun təmin olunması üçün kvotadan əlavə iş yerlərinin yaradılması | 1 000 000,0 |
| 3.12. | Sosial müəssisələrin yaradılması və məqsədli proqramların həyata keçirilməsi | 1 500 000,0 |
| 3.13. | Qanunla əmək hüququnun həyata keçirilməsi üçün nəzərdə tutulmuş digər aktiv tədbirlər | 1 000 000,0 |

**Maddə 4. Qalıqlardan istifadə**

İşsizlikdən sığorta fondunun (o cümlədən müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) aparatının və digər struktur bölmələrinin) hesablarında ilin sonuna qalan vəsait növbəti ilin xərclərinin maliyyələşdirilməsinə yönəldilir.

**Maddə 5. Bu Qanunun qüvvəyə minməsi**

Bu Qanun 2023-cü il yanvarın 1-dən qüvvəyə minir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 9 dekabr 2022-ci il*